**UOT: 338.23, 338.43:633/635**

# ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN İQTİSADİ TƏNZİMLƏNMƏ MEXANİZMİNİN FUNKSİYALARI VƏ MODELLƏRİ

**Leyla Elxan qızı Hacıyeva**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***
***e-mail: leila.haciyeva@mail.ru***

***Xülasə***

*İqtisadi tənzimləmə üzümçülük və şərabçılığın ümumi tənzimləmə sistemində aktiv rola malikdir. Belə vəziyyət özünü hər şeydən əvvəl iqtisadi tənzimləmə vasitələrinin funksional strukturunun xüsusiyyətlərində tapır.*

*Bütün digər sistemlərdə olduğu kimi üzümçülük və şərabçılığın tənzimlənməsində də iqtisadi vasitələrin funksiyaları müvafiq məqsədlərlə determinallaşmış olur. Məsələyə sahənin inkişaf məqsədlərinin hər bir ölkədə konkret dövr və şəraitə uyğun olaraq müəyyən edildiyini nəzərə almaqla yanaşıldıqda elmi təhlil üçün qeyd edilən funksiyaların ümumi şəkildə formalaşdırılması zəruriliyi meydana gəlir. Bu baxımdan məqalədə iqtisadi tənzimləmənin yeri və roluna dair təhlillərdən çıxış etməklə onun kömək, stimullaşdırıcı və nizamlayıcı funksiyalarına baxılır.*

***Açar sözlər:*** *üzümçülük və şərabçılıq kompleksi, iqtisadi tənzimlənmə, tənzimlənmə modelləri, tənzimlənmənin funksiyaları, idxal tənzimlənməsi.*

## Giriş

Azərbaycanda üzümçülüyün sürətli inkişafı ötən əsrin 70-ci illərin sonlarına təsadüf edir. Ölkədə üzüm istehsalının 2.0 mln. tona çatdırılması bu sahədə emal sənayesinin şərab məhsulları istehsal kompleksinin inkişafına səbəb oldu. Beləliklə, üzümçülük şərabçılıq kompleksi iqtisadiyyatın aqrar sektorunda aparıcı sahəyə çevrildi. .

Təəssüf ki, sonrakı illərdə bu kompleks də tənəzzülə uğradı. Lakin müstəqillik illərində ölkədə aparılan uğurlu aqrar islahatlar üzümçülüyün də inkişafına zəmin yaratdı. Hazırda əkin sahələrinin ümumi həcmi 16,1 min ha, ondan bar verən sahələr 14,5 min ha təşkil edir və bu proses genişləndirilir. 2019-cu ildə 201,8 min ton üzüm toplanmışdır ki, bunun da 80%-dən çox şərab məhsulları istehsalına yönəldilmişdir. Eyni zamanda, hazırki şəraitdə də bu sahənin dayanıqlı inkişafının təmin olunması səmərəli iqtisadi tənzimlənmə mexanizminin formalaşdırılması ilə bağlıdır.

**Üzümçülük və şərabçılıq sahələrinin tənzimlənmə mexanizmi**

Üzümçülükdə istehsalın genişləndirilməsi və ya sahədə inkişafla bağlı hər hansı problemin əvəzi ödənilmədən, yaxud güzəştli şərtlərlə həlli, həmin məqsədlər üçün maliyyə vəsaitlərinin, habelə digər resursların ayrılması kömək funksiyası vasitəsilə reallaşdırılır. Daha doğrusu, iqtisadi tənzimləmənin kömək funksiyası ölkədə üzümçülüyün inkişafının mərhələsi və səviyyəsindən asılı olaraq istehsalın həcminin genişləndirilməsinə, məhsulun keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına və rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş olur. Bu funksiya çərçivəsində istiqamətlər və tətbiq olunan vasitələr də ölkələr üzrə konkret şəraitlərə uyğun olaraq fərqləndirilir.

Stimullaşdırma funksiyası sahənin inkişafını zəruri istiqamətlərə yönəltmək məqsədlərinin reallaşdırılmasına xidmət edir (1). Müasir şəraitdə bir qayda olaraq həmin istiqamətlər kimi şərabçılıq məhsullarınınun yüksək keyfiyyət göstəricilərinin təmin edilməsi, onların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi qəbul olunur. Stimullaşdırma funksiyası istehsalçıların müvafiq motivasiyasının formalaşdırılması yolu ilə reallaşdırılır. Üzümçülük və şərabçılıqda həmin vəzifə həm həvəsləndirici və həm də cəzalandırıcı iqtisadi vasitələr tətbiq etmək əsasında istehsalçıların maddi maraqlarına təsir vasitəsi kimi həyata keçirilə bilir. Təbii ki, bu halda tətbiq olunan iqtisadi təsir alətlərinin arsenalı ölkələr üzrə fərqlənir.

Qeyd etmək lazımdır ki, stimullaşdırma funksiyasının reallaşdırılmasında istifadə edilən vasitələrin, daha doğrusu həvəsləndirici alətlərin bir qismi həm də iqtisadi tənzimləmə mexanizminin kömək funksiyasının həyata keçirilməsində istifadə edilir. Belə bir vəziyyətdə həmin alətlərin konkret olaraq hansı funksiyanın vasitəsinə aid edilməsi, onların tətbiqi mexanizminin xarakteri və yönümü ilə müəyyən edilə bilər.

Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsində nizamlayıcı funksiya da mühüm rola malik olur. Bu funksiya əsasən şərabçılıq məhsulları bazarının tənzimlənməsinə yönəldilir. Nizamlanmanın başlıca istiqamətlərini aşağıdakı hədəflər təşkil edir:

- *daxili bazarda stabilliyin qorunması;*
- *istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin təmin edilməsi;*
- *istehlakçıların mənafelərinin qorunmasının təmin olunması.*

Göstərilən istiqamətlər üzrə nizamlamanın təmin olunması tənzimləmə proseslərinin bilavasitə şərabçılıq məhsullarının dövriyyəsi ilə məhdudlaşdırılmadan nisbətən geniş dairəni əhatə etməsini nəzərdə tutur. Daha doğrusu, tənzimləmə dairəsinə üzüm və şərabçılıq məhsullarının istehsalı ilə yanaşı, habelə idxalının müvafiq yönümlərdə nizamlanması da daxil edilir.

Bazarda qiymət istiqrarının təmin edilməsi məqsədilə istehsalın həcminin tənzimlənməsi şərabçılıq məhsullarının təklifinin nizamlanması məqsədinə yönəldilir. Nizamlanmanın bu istiqaməti bir qayda olaraq inkişaf etmiş və bazar tələbinin ödənilməsində daxili istehsalın yüksək olduğu ölkələr üçün səciyyəvidir. Qloballaşma proseslərinin dərinləşdiyi müasir şəraitdə istehsal həcmlərinin nizamlanması ilə bağlı tədbirlər daha çox həm də şərabçılıq məhsullarının beynəlxalq bazarlarda yaranan konyukturaları nəzərə almaqla həyata keçirilir.

Şərabçılıq məhsullarının təklifinin nizamlanması həmin məhsulların istehlakının həcminin və yaxud da artıq istehsal olunmuş məhsulun bazara yönəldilən həcminin tənzimlənməsi formasında təmin edilə bilir. Müasir şəraitdə birinci istiqamət Avropa Birliyinə üzv ölkələrdə üzümlüklərin rekonstruksiyası və konversiyası sisteminin tətbiqi vasitəsilə reallaşdırılır. İkinci istiqamət isə bazarda stabilliyin gözlənilməsi məqsədilə, şərabçılıq məhsulları istehsalının həcminin müvafiq tələb səviyyəsindən artıq olduğu hallarda onun bir hissəsinin satışa çıxarılmayaraq saxlanılmaya yönəldilməsi və yaxud da həmin məhsulun distilyasiya edilməsi (şərabçılıq məhsullarından spirt çəkilməsi), carı istehsalın həcminin bazar tələbindən aşağı olduğu hallarda isə əvvəlki dövrlərdə istehsal olunmuş məhsulların satışa çıxarılması vasitəsilə reallaşdırılır.

Təklifin həcminin tənzimlənməsinin göstərilən mexanizmində iqtisadi vasitələrdən fəal istifadə edilir. İlk növbədə istehsalçılara üzüm plantasiyalarının restrukturizasiyasına görə kompensasiyaların verilməsi, habelə artıq məhsulun distilyasiyasına görə zərərin kompensasiyası aid edilir.

Distilyasiya zamanı zərərin kompensasiyası hədəf qiymətləri əsasında həyata keçirilir. Bu qiymətlər süfrə şərablarının altı kateqoriyası üçün son iki ilin qiymət göstəricilərinə uyğun olaraq hesablanır. Marketinq ilinin əvvəlinə (1 sentyabr tarixinə) istehsalçılarda şərab istehsalının və ehtiyatının həcmi yoxlanılır. Ehtiyatların həcmi böyük olduğu hallarda istehsalçılar könüllü olaraq qabaqcadan distilyasiyada iştirak edə bilərlər. Bununla yanaşı, bazarın tənzimlənməsi ilə əlaqədar, artıq məhsulun istehsalçılarda saxlanılması və üzüm suslosundan şərabın tündlüyünün yüksəldilməsi habelə sonrakı emal üçün istifadə olunmasına görə istehsalçıya maliyyə köməyi göstərilir (2).

Müasir dövrdə daxili şərab məhsulları bazarının nizamlanmasında həmin məhsulların idxalının tənzimlənməsi də mühüm rol oynayır. Şərab məhsullarının daxili bazarının nizamlanması şərabçılıq məhsullarının istehsalçısı olan ölkələr üçün sadəcə daxili bazarda müvafiq məhsullar təklifinin həcminin məqsədəmüvafiq səviyyəsini təmin etməyə deyil, həm də yerli istehsalçılar üçün əlverişli rəqabət şəraitinin yaradılmasına xidmət edir. Bu mənada üzümçülük və şərabçılığın inkişaf etdiyi ölkələrdə sözügedən istiqamət üzrə tənzimləmə vasitələri daxili bazarda məhsul satışının həcminin və çeşidinin nizamlanmasından daha çox həmin ölkələrin özlərində istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin təmin olunmasına yönəldilir.

Şərabçılıq məhsullarının idxalı zamanı fiskal məqsədlər üçün, yəni büdcə gəlirlərinin formalaşması mənbələri kimi çıxış edən gömrük rüsumlarının dərəcələri, aksiz və digər vergi növləri vasitələri tətbiq edilir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, şərabçılıq məhsullarının ölkəyə idaxalı zamanı tətbiq edilən həmin tənzimləmə vasitələri onların konkret səviyyəsindən asılı olaraq idxalın həcminin formalaşmasına, həmçinin idxal məhsullarının daxili bazarda reallaşdırıldığı qiymətlərə təsir göstərən amil kimi çıxış edir. Onlar, dolayısilə, qeyd edilən ikinci istiqamət üzrə tənzimləmənin iştirakçısına çevrilə bilir. Yəni, əslində bu vasitələr yerli məhsulların daxili bazarda rəqabətqabiliyyətliliyinə təsir göstərən (qiymət rəqabəti vasitəsilə) amilə çevrilmiş olurlar.

Ayrı-ayrı dövrlərdə şərabçılıq məhsullarının daxili bazarının nizamlanmasında mühüm istiqamət kimi idxalın tənzimlənməsi praktikasında konkret şəraitdən asılı olaraq, gömrük-tarif tənzimləmə vasitələrinin - qeyri-tarif tənzimlənməsi ilə əlaqələndirilməsi həyata keçirilə bilir.

Azərbaycan Respublikasının praktikasında müvafiq sistemin formalaşması və inkişafı gedişində qeyri-tarif tənzimlənməsinin gömrük-tarif tənzimlənməsi ilə əvəzlənməsi istiqamətində dəyişikliklərin həyata keçirilməsi səciyyəvi olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin “Alkoqollu içkilərin, etil (yeyinti) spirti və tütün məmulatları istehsalının,

saxlanılmasının, idxalının və satışının tənzimlənməsi haqqında" 1996-cı il 20 dekabr tarixli 527 nömrəli Fərmanına uyğun olaraq, ölkədə yüksək keyfiyyətli şərab məhsulları istehsalına istehsalçıların marağını artırmaq məqsədilə hər il həmin məhsulların istehsalı və satışı üzrə proqramlar nəzərə alınmaqla onların idxalının yuxarı həddinin müəyyən edilməsi qaydası qoyulmuşdur. Lakin 2001-ci ildən həmin qayda şərab məhsullarının idxal kvotasının müəyyən edilməsi ilə əvəz olunmuşdur (3). Başqa sözlə, şərabçılıq məhsulları bazarının nizamlanması vasitəsi kimi idxalın tənzimlənməsində iqtisadi tənzimləmənin rolu yüksəldilmişdir.

Şərabçılıq məhsulları bazarının nizamlanması vasitəsi kimi həmin məhsulların idxalının tənzimlənməsinin digər xüsusiyyəti bu prosesdə gömrük-tarif alətlərinin vergi alətləri, o cümlədən aksiz mexanizmi ilə əlaqələndirilməsidir.

Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin göstərilən funksiyaları qarşılıqlı əlaqəli şəkildə, həm də paralel olaraq və ya ardıcıl surətdə reallaşdırıla bilər. Funksiyaların həyata keçirilməsi eyni və yaxud da fərqli alətlərlə təmin oluna bilir. Bütün bunlar iqtisadi tənzimləmə funksiyalarını vahid sistemin elementlərinə çevirir. Həmin sistemi aşağıdakı blok-sxem şəkilində göstərmək olar ***(Diaqram 1)***.

**Diaqram 1. Üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmənin funksiyaları və vasitələri**




***Mənbə:*** *Diaqram müəllif tərəfindən tərtib edilmişdir*

**Üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə modelləri**

Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin yuxarıda nəzərdən keçirilən funksiyalarının hansının üstünlük təşkil etməsi və iqtisadi vasitələrin hansı yönümdə daha fəal istifadə edilməsindən asılı olaraq tənzimləmənin müxtəlif modellərini ayırmaq mümkündür. Bu istiqamətdə aşağıdakı modellər fərqləndirilə bilər:

- *paternalist;*
- *stimullaşdırıcı;*
- *liberal;*
- *qarışıq.*

Paternalist model sahənin inkişafına güclü dövlət himayəsinin təmin olunmasına əsaslanır. Belə bir modelin tətbiqinin zəruriliyi birinci növbədə üzümçülüyün investisiya tutumu yüksək olan sahə olmasından irəli gəlir. Bir çox hallarda bir qayda olaraq, üzümçülüyün rəqabət qabiliyyətinin təmin edilməsi üçün plantasiyaların salınması və bar verən yaşa çatdırılması ilə bağlı xərclərin maliyyələşdirilməsinə, habelə üzümlüklərdə yenidənqurma və modernləşdirmə işlərinin aparılmasına təsirli dövlət köməyinin həyata keçirilməsinə ehtiyac yaranır.

Paternalist modelin tətbiqi zamanı dövlət müstəqim tənzimləmə vasitələri, o cümlədən birbaşa maliyyələşdirmə yolu ilə üzümçülüyün təşəkkülünə, genişləndirilməsinə, xammal emalının təşkili və modernləşdirilməsinə şərait yaradır. Eyni zamanda, bəzi hallarda dövlət daxili bazarın qorunması sahəsində tədbirlər həyata keçirir (4).

İqtisadi tənzimləmənin paternalist modeli üzümçülük və şərabçılığın inkişafına kənardan maliyyə resurslarının cəlb edilməsi imkanlarının geniş olmadığı, habelə sahənin inkişaf etdirilməsinin ölkə üçün önəmli sosial-iqtisadi rola malik olduğu şəraitdə tətbiq edilir. Bu modelin reallaşdırılması üçün başlıca zəmin dövlətin zəruri maliyyə imkanlarına malik olmasıdır.

Stimullaşdırıcı model üzümçülük və şərabçılıqda iqtisadi həvəsləndirmə vasitələrinin fəal istifadəsi əsasında stabilliyin təmin edilməsi, səmərəliliyin yüksəldilməsi və istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin təmin olunmasına yönəldilir. İqtisadi tənzimləmənin bu modeli bir qayda olaraq, üzümçülük və şərabçılıq məhsullarının formalaşmış bazarlarının mövcudluğu şəraitində tətbiq edilir. Model çərçivəsində istifadə edilən iqtisadi vasitələr üstün olaraq yönəldici funksiyalar yerinə yetirirlər.

Göstərilən modelin uğurlu tətbiqinin başlıca şərtləri tənzimləmə tədbirlərinin reallaşdırılması üçün müvafiq potensialın mövcudluğu, habelə bazar mexanizmlərinin sahmanlı fəaliyyətinə təminatların olmasıdır.

Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin liberal modeli sahədə investorlar üçün əlverişli fəaliyyət mühitinin yaradılmasına əsaslanır. Bu model baxdığımız əvvəlki digər iki modeldən fərqli olaraq, dövlətin öz üzərinə əhəmiyyətli iqtisadi yük götürməsini nəzərdə tutmur.

Liberal tənzimləmə modelinə inkişaf edən bazarlar şəraitində, üzümçülük və şərabçılıq sahəsində xarici investisiyalara və rəqabətqabiliyyətli məhsul istehsalı üçün yeni texnologiyalara tələbatların böyük olduğu şəraitdə daha çox ehtiyac yaranır. Həmin modelin reallaşdırılması üçün başlıca zəmin dövlətin investisiyaların cəlb edilməsi və ixrac fəaliyyəti üçün əlverişli şəraitin yaradılması sahəsində davamlı siyasət həyata keçirməsidir.

Qeyd etmək lazımdır ki, üzümçülük və şərabçılığın göstərilən modellərinin hər birinin ayrılıqda "xalis" formada tətbiqinə az-az hallarda təsadüf edilir. Əksər hallarda ayrı-ayrı dövlətlərin müvafiq praktikasında bu və ya digər modelin müxtəlif elementlərinin yanaşı istifadəsinə rast gəlinir. Başqa sözlə, iqtisadi tənzimləmə praktikasının üstün olaraq qarışıq modelə əsaslandığı

nəzərə alınmalıdır. Ümumi şəkildə qarışıq modelin strukturunun formalaşmasının aşağıdakı şəkildə ifadə etmək olar ***(Diaqram 2)***.

**Diaqram 2. Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin qarışıq modelinin formalaşması**




***Mənbə:*** *Diaqram müəllif tərəfindən tərtib edilmişdir*

Qarışıq model üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə mexanizmlərini müxtəlif dövrlərdə konkret şəraitə uyğunlaşdırmağa və sahənin inkişaf məqsədlərinə daha münasib şəkildə yönəltməyə imkan verir.

Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, iqtisadi tənzimləmənin strukturuna görə fərqli xüsusiyyətlərə malik qarışıq modelləri ola bilir. Belə ki, üzümçülük və şərabçılıq sahəsində inkişaf edən bazarlara malik olan ölkələrdə, ilk növbədə sistem transformasiyalarının keçirilmiş olduğu dövlətlərdə, qarışıq tənzimləmə modeli nisbətən daha mürəkkəb strukturlu olur. Qarışıq model "paternalist + stimullaşdırıcı", "stimullaşdırıcı + liberal", həmçinin "paternalist + stimullaşdırıcı + liberal" modellərə aid elementləri və xüsusiyyətləri özündə birləşdirə bilir.

İnkişaf etmiş üzümçülük və şərabçılıq sektoruna malik olan ölkələrdə qarışıq tənzimləmə modeli bir qayda olaraq, stimullaşdırıcı və liberal modellərin əsas cəhətlərini özlərində birləşdirirlər.

Nəzərə almaq lazımdır ki, üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə modellərinin formalaşması dinamik xarakterə malikdir. Bu baxımdan ayri-ayri modellərin bir-birini əvəz etməsi də baş verə bilir.

Üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmə modellərinin bir-birini əvəz etməsi proseslərində qeyd edilənlərə səciyyəvi misal kimi sahənin elmi təminatının təşkilini göstərmək olar.

Paternalist model çərçivəsində sahənin elmi təminatı bütünlüklə dövlət hesabına həyata keçirilir. Elmi-tədqiqat işləri ixtisaslaşmış dövlət institutları tərəfindən aparılır. Tədqiqat işləri əsasən müstəqil (özəl) araşdırma qurumları tərəfindən həyata keçirildiyi hallarda da maliyyələşdirmə müvafiq layihələr üzrə bağlanılan müqavilələr əsasında dövlət vəsaitləri hesabına təmin olunur.

Stimullaşdırıcı və qarışıq modellərdə elmi təminat məsələlərinin həllində dövlətlə yanaşı istehsalçı subyektlərin birlikləri və ayri-ayri şirkətlər də iştirak edirlər. Liberal model çərçivəsində isə elmi-tədqiqatlar şərabçılıq müəssisələrinə məxsus qurumlar tərəfindən maliyyələşdirilir. Bu qurumlar

əsasən şərabçılıq müəssisələri tərəfindən yaradılır və istehsalın bütün silsiləsi üzrə innovasiyalar təklif edirlər, habelə strateji və təcrübi tədqiqatlar aparırlar.

Paternalist modeldən digər modellərə keçid üzümçülük və şərabçılığın tənzimlənməsinin təşkilati-institusional strukturunun formalaşmasında da öz əksini tapır. Həmin modellər çərçivəsində xüsusi tənzimləmə qurumunun yaradılması praktikası tətbiq olunur. Bu qurumların funksiyaları və strukturları sahənin inkişaf səviyyəsi, qərarlaşmış idarəetmə ənənələri və həyata keçirilən strategiyalar kimi amillərin təsiri ilə formalaşır. Bununla əlaqədar olaraq, göstərilən qurumların yaradılmasına fərqli yanaşmalar özünə yer tapır. Tənzimləmə qurumu bir halda dövlət təşkilatı statusunda, digər halda isə özəl sektorun nümayəndələrinin də iştirak əsasında xüsusi hüququn subyekti statusunda formalaşdırılır.

## Nəticə

Tənzimləmə predmetinin və hədəflərinin daha sıx şəkildə yerli (bəzi hallarda hətta mikrozona səviyyəsində) torpaq, iqlim şəraiti və istehsalda formalaşmış ənənələrlə bağlı olması istehsalçı birliklərinin dövlət dəstəyi və tənzimlənmə mexanizmlərinin icrası mühitində tənzimləmə aktyoru kimi fəal rolunun təmin edilməsi məqsədəuyğunluğunu şərtləndirir. Müasir şəraitdə xüsusilə tənzimləmədə zəngin təcrübəyə malik olan ölkələrdə şərabçıların özünütənzimləmə amili istehsal olunan məhsulun zəruri strukturu, keyfiyyət göstəriciləri və digər parametrlərin təmin olunması istiqamətində daha səmərəli nəticələr əldə etməyə imkanlar açdığını sübuta yetirir (5). İctimai birliklər vasitəsilə tənzimləmə dövlət tənzimləməsinin müəyyən funksiyalarını öz üzərinə götürür. Bununla da dövlət tənzimlənməsinin "yükü" bir qədər yüngülləşmiş olur. Eyni zamanda, müvafiq məqsədlərin reallaşdırılması baxımından ictimai tənzimləmənin səmərəliliyi yüksəlir. İkincisi, şərabçıların ictimai birlikləri, ilk növbədə, inzibati tənzimləmə funksiyaları yerinə yetirirlər, lakin bununla yanaşı, onlar həm də iqtisadi tənzimləmə tədbirlərini həyata keçirə bilirlər. Bu tədbirlər dövlət tənzimlənməsi tədbirləri ilə əlaqələndirilir və bəzən özünün istiqaməti baxımından dövlət tənzimlənməsinin tamamlanmasına xidmət etmiş olur.

## Ədəbiyyat

1. А. Личситса, О. Луки, Г. Гагалюк, С. Кваша. Единая аграрная политика Европейского Союза –путь становления и принципы функционироваия. Diskusionpeper № 92, 2006, стр. 20.
2. Б. А. Райзберг. Государственное управление экономическими и социальными процессами М., 2006, с. 34.
3. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 oktyabr tarixli 587 nömrəli Fərmanı.
4. Р.М. Магомедов. О необходимости государственного регулирования виноградо-винодельческого подкомплекса. Проблемы и перспективы развития сельского хозяйства России. http://www.cnshb.ru/jour/j_g.asp?id=2906.
5. А.Н. Золотаев. Государственное регулирование и поддержка предпринимательской деятельности в отрасли виноградарство и виноделия (на материалах Ставропольского края). Автореферат кандидатской диссертации на соискание ученой степени кандидата экономических наук. Ставрополь, 2004, с. 19.

L.E. Hajiyeva

*Ph.D. student of the* Agricultural Economics Research Center

**Functions and models of economic regulation mechanism of viticulture and winemaking**

*Summary*

*Economic regulation plays an active role in the overall system of regulation of viticulture and winemaking. Such a situation manifests itself, above all, in the characteristics of the functional structure of the means of economic regulation.*

*As in all other systems, the functions of economic instruments in the regulation of viticulture and winemaking are deterministic for appropriate purposes. Considering that the development goals of the field are determined in accordance with the specific period and conditions in each country, there is a need to formulate the above-mentioned functions for scientific analysis in general. From this point of view, based on the analysis of the place and role of economic regulation, it is possible to distinguish its auxiliary, stimulating and regulatory functions.*

***Keywords:*** *viticulture and winemaking complex, economic regulation, regulatory models, regulatory functions, import regulation.*

Л.Э. Гаджиева

*Докторант* Центра аграрных исследований

**Функции и модели механизма экономического регулирования виноградарства и виноделия**

*Резюме*

*Экономическое регулирование играет активную роль в общей системе регулирования виноградарства и виноделия. Такая ситуация проявляется, прежде всего, в характеристиках функциональной структуры средств экономического регулирования.*

*Как и во всех других системах, функции экономических инструментов в регулировании виноградарства и виноделия являются детерминированными для соответствующих целей. Учитывая, что цели развития отрасли определяются в соответствии с конкретным периодом и условиями в каждой стране, существует необходимость сформулировать вышеупомянутые функции для научного анализа в целом. С этой точки зрения, исходя из анализа места и роли экономического регулирования, можно выделить его вспомогательную, стимулирующую и регулирующую функции.*

***Ключевые слова:*** *виноградарско-винодельческий комплекс, экономическое регулирование, модели регулирования, регулирующие функции, регулирование импорта.*